Kim gecə Bəqərə surəsinin son iki ayəsini oxuyarsa, ona yetər

Əbu Məsuddan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim gecə Bəqərə surəsinin son iki ayəsini oxuyarsa, ona yetər".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim gecə Bəqərə surəsinin son iki ayəsini oxuyarsa, Allah onu şər və pisliklərdən qoruyar. Həmçinin deyilmişdir: Gecə namazının əvəzini verər. Həmçinin: Zikr və Quran oxumağın əvəzini verər. Həmçinin deyilmişdir ki: Ən azı, gecə namazında bu iki ayə miqdarında oxumaq yetərli olur və bu kimi digər rəylər mövcuddur. Bütün bu deyilənlərin hamısının doğru olması və həmin sözün bütün bu mənaları ehtiva etməsi ehtimal olunur.

https://sunnah.global/hadeeth/az/show/6274

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee